Hürriyyət

14

28 - 29 noyabr / 2019

# ÇIRAQQALA

Möhtəşəm zirvədə bir qala durur,
Şanlı tariximdən "soraq" qalası.

Ulu görkəmində əzəmət, qürur,
Bu qala nur saçan "Çıraq" qalası.

Keçilməz dağlardan Xəzərə qədər,
Uzanmış qolları bir sədd olarmış.
Ən ağır döyüşlər bu yerdə bitər,
Bu yerlər geriyə son hədd olarmış.

Yüz mahal oyanıb bir işarədən,
Bir elin sərt üzü dönüb bu yana.
Fəqət, qurtulmamış bəladan Vətən,
Enməyib bir qılınc, girməyib qına.

Düşmənin qəddini bükən qalanın,
Əyilməz başında Elin tacı var.
Elin keşiyini çəkən qalanın,
İndi qorunmağa ehtiyacı var.

**Məzahir Zeynal,**
**AYB üzvü, Şabran**